Elm: xüsusi buraxılış .- 2025.-18 noyabr (№36-37).- S.21.

## Məsud Əfəndiyev:

# "AMEA bütün dövrlərdə öz prinsiplərinə sadiq qalıb"

**AMEA-nın 80 illik yubileyinin dövlət səviyyəsində keçirilməsi və tədbirdə ölkə başçısı Cənab İlham Əliyevin şəxsən iştirakı Akademiyanın xalqımız üçün necə böyük əhəmiyyət daşıdığının bariz göstəricisidir.**



Bu sözləri dünya elmində ən yüksək təltiflərdən ("kiçik Nobel mükafatı") sayılan Humboldt mükafatının ilk azərbaycanlı laureatı, Almaniyanın Münxen şəhərindəki "Helmholtz" Elmi-Tədqiqat Mərkəzinin Dinamik sistemlər şöbəsinin müdiri, Əməkdar elm xadimi, fizika-riyaziyyat elmləri doktoru, professor Məsud Əfəndiyev deyib.

Professor Məsud Əfəndiyev bildirib ki, AMEA-ya verilən ən yüksək qiymət, dəyər Ulu Öndər Heydər Əliyevin bu elm məbədinə hər zaman ata qayğısı ilə yanaşması olmuşdur. Ümummilli Lider Heydər Əliyevin "Biz yaradılmış elmi potensialı qoruyub saxlamalı, ondan bugünkü və gələcək müstəqil Azərbaycanın inkişafı naminə daha səmərəli istifadə etməliyik" fikirləri buna bariz nümunədir. Məhz Ümummilli Liderin diqqət və qayğısı nəticəsində, ictimai-siyasi sistemdə baş verən dəyişikliklərə baxmayaraq, Akademiya bütün dövrlərdə öz prinsiplərinə sadiq qalmışdır: "Bu gün Azərbaycan dövlətinin suverenliyinin tam bərpa olunması AMEA-nın hər bir üzvünü yeni fundamental elmi nailiyyətlər əldə etməyə, dövlətimizin elmi potensialını daha da gücləndirməyə səsləyir".

O, AMEA-nın Azərbaycanı dünyaya tanıdan görkəmli alimlər və dahilər yetişdirdiyini söyləyib. "Akademiyanın həyətində gəzərkən və ya iclas zallarında olarkən sanki o böyük şəxsiyyətlərin ruhlarının orada pərvaz etdiyini hiss edirsən. Bu hiss, hər nə qədər metafizik təsir bağışlasa da, elmə və elm adamlarına duyulan dərin hörmətin, mənəvi bağın təzahürüdür," - deyə professor Məsud Əfəndiyev bildirib. Alim qeyd edib ki, həm humanitar, həm də fundamental elm sahələrində dünyada sözünü demiş AMEA korifeyləri, görkəmli alimlərimizin əksəriyyəti ilə şəxsi tanışlığı onun üçün böyük bir məktəb olub. Bu elm xadimləri ilə ünsiyyət onun elmi dünyagörüşünün formalaşmasında, elm sahəsinə olan marağının artmasında mühüm rol oynayıb. O, 2003-cü ildə ABŞ-da American Institute of Mathematical Sciences (AIMS) nəşriyyatında çap olunmuş "Fredholm Structures, Topological Invariants and Applications" adlı kitabımının giriş hissəsində, Azərbaycan riyaziyyat məktəbinin üzvü olduğunu göstərdiyini, həmçinin Zahid Xəlilov, Əşrəf Hüseynov və İbrahim İbrahimov kimi görkəmli alimlərimizi qürurla yad etdiyini vurğulayıb.

"Belə bir fikir var ki, elmin Vətəni olmur. Lakin mən bu fikrə bir cümlə də əlavə edərdim: Elm ilə məşğul olan hər bir insanın Vətəni olur", - deyən professor Məsud Əfəndiyev bildirib ki, artıq 35 ildən çoxdur Almaniyada yaşayıb-yaratmasına baxmayaraq, Azərbaycan vətəndaşı olaraq qalmaqdan böyük şərəf və qürur duyur. "İnanıram ki, məhz milli ruhda formalaşmış alimlərimizin səyləri nəticəsində AMEA-da fəaliyyət göstərən ziyalılarımız gələcəkdə də mühüm elmi nailiyyətləri ilə həm ölkəmizdə, həm də respublikanın hüdudlarından kənarda yaşayıb fəaliyyət göstərən elm adamlarını sevindirməkdə, qürurlandırmaqda davam edəcəklər.

O, fikirlərini "Elm məbədimiz AMEA-ya gələcək fəaliyyətində, elmi axtarışlarda uğurlar!" - sözləri ilə tamamlayıb.